# Üzeyir irsinin qoruyucusu

Çox qəribədir. Əliverdibəyovların nəsil şəcərəsindən bir sistem qurub, bunları gözümüz önünə gətirsək və onların maraqlı həyatı ilə yaxından tanış olsaq, bu şəxslərin içərisində azacıq da olsa, mənən axsamış, yadırğamış bir insana rast gəlmərik. Onların biri digərinin gördüyü gözəl işlərin ardıcıllığını qurmuş və bunun dağılmasını istəməmiş, biri digərini tamamlamışdır.



Budur, Əliverdibəyovlardan biri - Nazim Əliverdibəyov. Dahi Üzeyir bəyin dayısı Ağalar bəy Əliverdibəyovun oğlu.

Ağalar bəy Azərbaycanın ilk görkəmli tikinti mühəndisi olmuşdur.

Musiqini həddindən artıq sevən Ağalar bəy, Azərbaycan musiqisi və mədəniyyət tarixinə muğamların və xalq mahnılarının gözəl bilicisi kimi daxil olmuş, onları gözəl də ifa etmişdir. O, dahi Azərbaycan bəstəkarı Üzeyir bəyin ilk müəllimi olmuşdur. Məhz onun sayəsində Üzeyir bəy xalq musiqisini sevmiş, onu mənimsəmişdir.

Ağalar bəy Azərbaycan incəsənətinin bir sıra görkəmli nümayəndələri: Xan Şuşinski, Yusif Vəzir Çəmənzəminli, İ.Abdullayev, C.Qaryağdıoğlu, S.Rüstəmov və başqaları ilə mütəmadi olaraq görüşür, onlarla sıx əlaqə saxlayırdı. Onun evində müxtəlif gecələr təşkil olunar, mahnılar, muğamlar oxunar, sonra onların düzgün və ya səhv oxunulması barədə mübahisələr edilər, bu və ya digər kəsin daha yaxşı oxuması haqqında fikirlər söylənilərdi. Ağalar bəy Əliverdibəyov bütün həyatı boyu Azərbaycan klassik poeziyası ilə musiqisinin şifahi ənənələrinin qarşılıqlı əlaqəsinin vəhdətinə çalışırdı. Onun axtarışlarının nəticəsi, Azərbaycanda muğam operası olan "Harun-ər-Rəşid" olur.

Təbiidir ki, Ağalar bəyin bu cür yaradıcılıq bioqrafiyası sonradan onun oğluna da öz təsirini göstərmiş olur və onun yaradıcılıq yolunun müəyyənləşməsində mühüm rol oynayır.

Ağalar bəyin ailəsində 4 uşaq var idi: 3 oğlan və bir qız. Onun səyi ilə uşaqların hamısında musiqiyə böyük həvəs oyanır. Təsadüfi deyildir ki, bu uşaqlar öz gələcək talelərini məhz musiqi ilə bağlayırlar. Kazım bəy - opera dirijoru, Nüşabə xanım - musiqi müəllimi, Rasim - skripkaçı, Nazim - violonçeldə gözəl çalğı ifasına malik olmuş, həm də bəstəkar kimi diqqət çəkmişdir.

Haqqında bəhs edəcəyimiz Nazim Əliverdibəyov Azərbaycan musiqi mədəniyyətinin inkişafında, yüksəlməsində mühüm rol oynamışdır.

Nazim Əliverdibəyov 1926-cı il avqustun 24-də Kislovodskda anadan olmuşdur. O, ilk təhsilini 12 yaşında alır. 1938-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin nəzdində xüsusi təşkil edilmiş qrupa daxil olur. 1940-cı ildə isə Azərbaycan Dövlət Konservatoriyası nəzdində 10 illik musiqi məktəbində dərslərinə davam edir.

Ü.Hacıbəyov bu məktəbə buraxılış imtahanlarına gələrkən Nazimin violonçeldə ifasına qulaq asır. Nazim violonçeldə özünün yazdığı ilk əsərini ifa edir. Bu, Üzeyir bəyin çox xoşuna gəlir və ona təhsilini davam etdirmək üçün sənədlərini konservatoriyaya verməyi məsləhət görür.

Nazim 1944-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının violonçel sinfinə daxil olur. Violonçel dərslərini əvvəllər məşhur pedaqoq A.Şvarts, sonra isə İ.Turiçdən alır. Lakin bir qədər keçdikdən sonra özündə bəstəkarlığa böyük meyl olduğunu görərək, bu sahədə də oxumaq arzusunu həyata keçirmək istəyir.

O, imtahan komissiyasına özünün fortepiano üçün yazdığı "Poema" və "Pyes"ini təqdim edir. Bu əsərlər çox bəyənilir.

Eyni vaxtda konservatoriyanın iki şöbəsində oxuyan Nazim violonçeldə virtuoz ifa texnikasına nail olduqdan sonra Ş.Qurbanov adına Musiqili Komediya Teatrının orkestrində çalışır.

1951-ci ildə Bülbül adına onillik musiqi məktəbində Nazim Əliverdibəyov özünün müəllimlik fəaliyyətinə başlayır. Burada musiqi nəzəriyyəsi və bəstəkarlıqdan dərs deyir.

1952-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini (prof. C.Hacıyevin sinfi) bitirən Nazim ali musiqi təhsili alır. Onun diplom işi "Mingəçevir" simfonik poeması olur ki, bu da imtahan komissiyası tərəfindən "əla" qiymətə layiq görülür.

Öz meylini sırf bəstəkarlığa yönəldən Nazim Əliverdibəyov musiqi sənətinin müxtəlif janrlarına müraciət etmişdir. Onun musiqisi çox sadə, başa düşülən, qavranılandır. Bu da təsadüfi deyildir. Çünki Nazim Əliverdibəyovun musiqisi daim xalq yaradıcılığı, folklorla bağlı olmuşdur.

Bəstəkarın "Cırtdan" operası, "Nazxanım naz eləyir" musiqili komediyası, fortepiano üçün "Xatirə", "Skertso" əsərləri, violonçel üçün "Sonatina"sı, skripkaçılar ansamblı üçün "Skertso"su, "Muğam" xoreoqrafik lövhəsi, 2 balet süitası, "Qarabağ", "Dalğalar", "Pəri", "Azərbaycan" mahnıları, "Çiçək" romansı öz melodikliyi və aydınlığı ilə seçilir.





***Əliverdibəyovlar!***

***Bu soyad çox məşhurdur. Onun daşıyıcıları Azərbaycanın mədəni-iqtisadi həyatında, təkamülündə, çiçəklənməsində əlindən gələni əsrigəməyən şəxslər olmuşlar.***

***Maraqlıdır, görəsən onlar bu soyadın necə bir qürur mənbəyi olduğunu duyaraq, yoxsa, sadəcə, görməli olduqları işlərin məsuliyyətini dərk edərəkmi özlərini onilliklər ərzində Azərbaycanın mədəni həyatının təkamülünə, dirçəlişinə, bu yoldakı əziyyətlər burulğanına atırdılar? Yoxsa bütün bunlar Əliverdibəyovların taleyinə yazılan alın yazısı idi?***

Azərbaycan xalq mahnı və rəqslərinin müxtəlif alətlər üçün işləmələri də Nazim Əliverdibəyov yaradıcılığında xüsusi yer tutur. "Dübeyt", "Səməni", "Cəngi", "Gül bağçalar", "Almanı atdım xarala" və s. xalq mahnı və rəqsləri bu qəbildəndir.

Nazim Əliverdibəyov kinofilmlər üçün də musiqi yazmışdır: "Göllər şahzadəsi", "Biz balıqçılarıq", "Bizim küçənin oğlanları" onun qələminin məhsuludur.

Bəstəkarın yaradıcılığında uşaqlar üçün yazılmış musiqi də böyük yer tutur. Onun uşaq musiqisinə müraciəti heç də təsadüfi deyildir. Nazim Əliverdibəyovun uzun illər Bülbül adına Orta İxtisas Musiqi məktəbində işləməsi, daim uşaqların əhatəsində olması bu sevgini, məhəbbəti daha da artırmışdır. Nazim müəllimin skripkaçılar ansamblı və simfonik orkestr üçün yazdığı "Skertso"su, "Məktəblilərin Oktyabr mahnısı" kantatası, müxtəlif uşaq ansamblları üçün pyeslər silsiləsi, mahnıları geniş yayılmışdır.

20 ildən artıq bir müddət ərzində o, Bülbül adına orta ixtisas musiqi məktəbinin direktoru olmuş, gənc nəslin musiqi tərbiyəsi sahəsində fədakarlıqla çalışmışdır. Nazim müəllim burada oxuyan şagird və müəllim kollektivinin böyük hörmət və rəğbətini qazanmışdır. Məhz onun səyi nəticəsində məktəbdə muğam şöbəsi təşkil edilmiş və uşaqların oxuması üçün hərtərəfli şərait yaradılmışdır.

80-cı illərdə Ü.Hacıbəyovun musiqi irsinin çoxcildliliyi hazırlanırdı. Birinci iki cildin musiqi redaktorluğu Nazim Əliverdibəyova tapşırılır. Birinci cild Üzeyir bəyin "Leyli və Məcnun" operasının partiturasından ibarət idi.

Nazim müəllim Ü.Hacıbəyovun yaradıcılığını, onun harmonik dilini, üslubunu gözəl bilir, duyurdu. Odur ki, o, "Leyli və Məcnun"un bir neçə variantını, əlyazmasını götürür, onları bir-biri ilə tutuşduraraq, Üzeyir bəyə mənsub olan yeganə variantı təyin edir.

Partitura hazır olandan sonra o, Ü.Hacıbəyovun əsərləri çoxcildliliyinin baş redaktoru, akademik Q.Qarayevə göstərilir. Qara müəllim partituranı tərif edərək bu işin əhəmiyyətini və indiyə qədər heç kəs tərəfindən görülmədiyini söyləyir.

Üzeyir bəyin fərdi stil və yaradıcılığına xas olan, onun düşüncələrinə uyğun, orijinalla uzlaşan bu partituranın ilk nəşri 1983-cü il oktyabr ayında işıq üzü görür.

"Leyli və Məcnun" operasının partiturası, onun gərəkliliyi haqqında bir çox məşhur musiqiçilər rəy yazmış, fikirlər söyləmişlər.

Tanınmış musiqişünas Viktor Vinoqradova bu partituranı göstərdikdə o, çox təəccüblə demişdir ki, "heç təsəvvür etməzdim ki, bu muğam operasında Hacıbəyovun özünün yazdığı musiqi belə çox olsun. Nazim Əliverdibəyovun bu iş üzərində gərgin əməyi dərin hörmətə, təşəkkürə və qiymətə layiqdir".

Görkəmli bəstəkar Fikrət Əmirov isə yazırdı: "Leyli və Məcnun" operasının partiturasının gözəl, sanballı nəşrini görən musiqiçilər sevinirlər ki, bu misilsiz sənət incisi yüksək elmi səviyyədə indiki və gələcək nəsillərə təqdim olunur. Deməli, bəstəkarın bütün musiqi irsini eyni ləyaqətlə, eyni yüksək vətəndaşlıq əzmiylə nəşr etmək üçün bizim səriştəli kadrlarımız, əsl professionallıqla yanaşan mütəxəssislərimiz vardır".

Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasının partiturasının akademik nəşri musiqi mədəniyyəti xəzinəsinə qiymətli hədiyyədir və böyük bəstəkarın bu ölməz əsərini gələcək nəsillərə də sevdirəcəkdir.

"Leyli və Məcnun" operasının partiturasından sonra onun klaviri, daha sonra isə "Koroğlu" operasının birinci pərdəsinin partiturası çapdan çıxdı. Bu cildlərin üçününün də redaktoru Nazim Əliverdibəyov olmuşdur.

"Əsli və Kərəm" operasının da yenidən orkestrləşdirilməsi Nazim Əliverdibəyova məxsusdur.

Gözəl musiqiçi və insan, Azərbaycan musiqisinin yorulmaz təbliğatçısı Nazim Əliverdibəyovun işi və adı hələ uzun illər nəinki musiqi tarixində, ümumiyyətlə, Azərbaycan xalqının tarixində yaşayacaqdır!

**Sevinc AQİLQIZI,**
***Üzeyir Hacıbəyovun ev-muzeyinin böyük elmi işçisi***